*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 18 iyun tarixli 6/37 saylı Qərarı ilə təsdiq edilmişdir.*

# Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi qaydaları haqqında

# T Ə L İ M A T

Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi qaydaları Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 100–102-ci, Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 54-cü, 180-ci maddələri və bu Təlimatla tənzimlənir.

## 1. Ümumi müddəalar

1.1. Prezidentliyə namizədlər seçkilərin təyin edilməsi haqqında qərar rəsmi dərc olunduqdan sonra irəli sürülür.

1.2. Prezidentliyə namizədlər (bundan sonra – namizədlər) passiv seçki hüququna malik olan və Konstitusiyanın 100-cü maddəsinin tələblərinə cavab verən vətəndaşın özü, aktiv seçki hüququna malik vətəndaşların (bundan sonra – seçicilərin) təşəbbüs qrupları, habelə siyasi partiya və ya siyasi partiyaların bloku tərəfindən irəli sürülə bilərlər.

1.3. Siyasi partiya, siyasi partiyaların bloku həmin siyasi partiyanın, habelə bloka daxil olan partiyaların üzvü olmayan şəxsləri də namizəd kimi irəli sürə bilərlər.

## 2. Namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi qaydaları

2.1. Namizədin irəli sürülməsi haqqında qərarı siyasi partiya öz nizamnaməsinə uyğun olaraq qəbul edir. Belə qərar kollegial qaydada, səsvermə yolu ilə qəbul edilməlidir.

2.2. Siyasi partiyaların bloku tərəfindən irəli sürülən namizəd bloka daxil olan hər bir siyasi partiya tərəfindən təsdiq edilir. Siyasi partiyaların blokları tərəfindən namizədin irəli sürülməsi haqqında qərar siyasi partiyaların nümayəndələrinin iclasında (qurultayında, konfransında, rəhbər orqanının iclasında) qəbul edilir. Siyasi partiyaların səlahiyyətli nümayəndələri də partiyaların qurultayında (konfransında, rəhbər orqanının iclasında) müəyyənləşdirilir.

2.3. Namizəd öz arzusu ilə siyasi partiyaya mənsubluğunu namizədliyinin irəli sürülməsinə dair razılıq ərizəsində göstərə bilər.

2.4. Namizədin irəli sürülməsi barədə siyasi partiyanın, siyasi partiyalar blokunun qərarı protokolla rəsmiləşdirilir. Həmin protokolda aşağıdakılar

göstərilir:
2.4.1. iclasda (qurultayda, konfransda, rəhbər orqanın iclasında) iştirak etmək üçün qeydə alınmış iştirakçıların sayı;
2.4.2. siyasi partiyalar blokunun yaradılması haqqında sazişdə nəzərdə tutulan qərarın qəbul edilməsi üçün lazım olan iştirakçıların sayı;
2.4.3. namizədin irəli sürülməsi barədə qərar və bu qərar üzrə səsvermənin nəticələri;
2.4.4. qərarın qəbul edilməsi tarixi.

**3. Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün siyasi partiya Mərkəzi Seçki Komissiyasına aşağıdakı sənədləri təqdim etməlidir:**

3.1. siyasi partiyanın qeydə alınması barədə şəhadətnamənin notariat qaydasında təsdiq edilmiş surəti;
3.2. siyasi partiyanın qüvvədə olan nizamnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti;
3.3. namizədliyin irəli sürülməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanının iclasının) qərarı və müvafiq iclasın protokolu;
3.4. Seçki Məcəlləsinin 54-cü maddəsinin tələblərinə uyğun tərtib edilmiş razılıq ərizəsi (Təlimata 1 saylı əlavə) *(ərizədə prezidentliyə namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, onun doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri və tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayıb-yaşamaması, məhkumluğunun olub-olmaması, vətəndaşlıq vəziyyəti və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatlar, habelə prezident seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilməlidir);*
3.5. səlahiyyətli nümayəndənin (nümayəndələrin), habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin (nümayəndələrin) təyin edilməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanının iclasının) qərarı;
3.6. siyasi partiyanın səlahiyyətli nümayəndələrinin siyahısı (Təlimata 2 saylı əlavə);
3.7. maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin siyahısı (Təlimata 3 saylı əlavə);
3.8. səlahiyyətli nümayəndənin (nümayəndələrin) razılıq məktubları (Təlimata 4 saylı əlavə);
3.9. maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin (nümayəndələrin) razılıq məktubları (Təlimata 5 saylı əlavə);
3.10. siyasi partiyanın səlahiyyətli nümayəndəsinin (nümayəndələrin) və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin (nümayəndələrin) həmin siyasi partiya rəhbərinin imzası və təşkilatın möhürü ilə təsdiq edilmiş vəkalətnaməsi (vəkalətnamələri) (Təlimata 6 və 6 “a” saylı əlavələr);
3.11. siyasi partiyanın səlahiyyətli orqanı səlahiyyətli nümayəndənin səlahiyyətinə xitam verdiyi halda, bu barədə qərarın surəti.

3.12. Bu Təlimatın 3.1–3.11-ci bəndlərində göstərilən sənədləri Mərkəzi Seçki Komissiyasına səlahiyyətli nümayəndə təqdim edir.

3.13. Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş sənədlərin qəbul edilməsi barədə yazılı arayış səlahiyyətli nümayəndəyə verilir (Təlimata 7 saylı əlavə).

3.14. Mərkəzi Seçki Komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır, səlahiyyətli nümayəndəyə namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə qərar təqdim edir (göndərir).

## 4. Namizədin irəli sürülməsinin təsdiq edilməsi üçün siyasi partiyalar bloku Mərkəzi Seçki Komissiyasına aşağıdakı sənədləri təqdim etməlidir:

4.1. siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların qurultaylarının (konfranslarının, rəhbər orqanlarının iclaslarının) namizəd irəli sürmək barədə qərarları ilə birlikdə müvafiq iclasların protokolları;

4.2. siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların nümayəndələrinin iclasının siyasi partiyaların bloku adından namizəd irəli sürmək barədə qərarı və müvafiq iclasın protokolu;

4.3. siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada (Təlimata 6 "b" və 6 "c" saylı əlavələr) və ya notariat qaydasında rəsmiləşdirilmiş vəkalətnamələri (Təlimata 6 "ç" və 6 "d" saylı əlavələr);

4.4. siyasi partiyaların səlahiyyətli nümayəndələrinin siyahısı (Təlimata 2 saylı əlavə);

4.5. maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin siyahısı (Təlimata 3 saylı əlavə);

4.6. səlahiyyətli nümayəndələrin razılıq məktubları (Təlimata 4 saylı əlavə);

4.7. maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin razılıq məktubları (Təlimata 5 saylı əlavə);

4.8. Seçki Məcəlləsinin 54-cü maddəsinin tələblərinə uyğun tərtib edilmiş razılıq ərizəsi (Təlimata 1 saylı əlavə) *(ərizədə prezidentliyə namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, onun doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri və tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayıb-yaşamaması, məhkumluğunun olub-olmaması, vətəndaşlıq vəziyyəti və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatlar, habelə prezident seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilməlidir).*

4.9. Bu Təlimatın 4.1–4.8-ci bəndlərində göstərilən sənədləri Mərkəzi Seçki Komissiyasına səlahiyyətli nümayəndə təqdim edir.

4.10. Mərkəzi Seçki Komissiyası təqdim edilmiş sənədlərin qəbul edilməsi barədə yazılı arayışı səlahiyyətli nümayəndəyə verir (Təlimata 7 saylı əlavə).

4.11. Mərkəzi Seçki Komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində

baxır, səlahiyyətli nümayəndəyə namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə qərar təqdim edir (çatdırır).

## 5. Yekun müddəalar

5.1. Bu Təlimat qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 4 iyul 2008-ci il tarixli 6/23-4 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin seçkilərində siyasi partiyalar blokunun qeydə alınması, namizədlərin, siyasi partiyaların və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi qaydası haqqında" Təlimat qüvvədən düşmüş hesab edilir.

*Təlimata 1 saylı əlavə*

______________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

tərəfindən Azərbaycan Respublikasının Prezidenti seçkilərində prezidentliyə namizəd irəli sürülmüş şəxsin namizədliyinin irəli sürülməsinə dair

# R A Z I L I Q   Ə R İ Z Ə S İ

Mən, ________________ ildə anadan olmuş, ______________________
*(doğum tarixi)* *(yaşayış yerinin ünvanı)*

____________________________________________________ yaşayan,

______________________________ malik olan, _____________ təhsilli,
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi)* *(təhsili haqqında məlumat)*

_____________________________________ işləyən (fəaliyyət göstərən),
*[əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü)]*

_______________ ərzində Azərbaycan Respublikasının ərazisində yaşayan
*(müddət)*

_______________________________________ ___________________
*(namizədin soyadı, adı, atasının adı)* *(seçkilərin keçiriləcəyi tarix)*

tarixdə keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkilərində

___________________________________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyimin irəli sürülməsinə razılıq verirəm.

Mənim ödənilməmiş və ya üzərimdən götürülməmiş məhkumluğum ____________________ .
*(olub-olmamasına dair məlumat)*

Ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda:

___________________________________________________________
*(Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və*

___________________________________________________________
*nömrəsi, xarici ölkədə cinayət məsuliyyəti yaradan əməl olmuşdursa və*

___________________________________________________________
*bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa və bu əməl*

___________________________________________________________
*Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa,*

___________________________________________________________
*xarici ölkənin müvafiq qanununun adı)*

Azərbaycan Respublikasının vətəndaşıyam, seçkilərdə iştirak etmək hüququna malikəm, ikili vətəndaşlığım və başqa ölkələr qarşısında öhdəliklərim ____________________ .

*(yoxdur / vardır)*

İkili vətəndaşlığı və ya başqa ölkələr qarşısında öhdəliyi olduqda:

____________________________________________________________

*(həmin ölkənin adı və öhdəliyin məzmunu)*

____________________________________________________________

__________________________ tarixdə keçiriləcək Azərbaycan Respublikası

*(seçkilərin keçiriləcəyi tarix)*

Prezidentinin seçkilərində prezidentliyə namizədliyimin irəli sürülməsinin mənim iradəmə uyğunluğunu bildirirəm və prezident seçiləcəyim halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyimi öhdəmə götürürəm.

__________________________________________________ üzvüyəm,

*(mənsub olduğu siyasi partiyanın adı və abreviaturası)*

prezidentliyə namizədliyim qeydə alındığı halda, seçki bülletenində siyasi partiyaya mənsubiyyətim ____________________________________ .

*(göstərilib-göstərilməməsinə dair məlumat)*

_____________ ________________________________

*(imza)* *(soyadı, adı və atasının adı)*

"_____" _____________ 20___ il

**Qeyd:** *Azərbaycan Respublikası Seçki Məcəlləsinin 40.15-ci maddəsinin tələbinə uyğun olaraq razılıq ərizəsinə namizədin 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkli əlavə olunmalıdır.*

*Təlimata 2 saylı əlavə*

______________________________
*(seçki komissiyasının adı)*

______________________________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

**siyasi partiya, siyasi partiyaların bloku tərəfindən təyin edilmiş səlahiyyətli nümayəndələrin**

# S İ Y A H I S I

| Sıra sayı | Soyadı, adı, atasının adı | Doğulduğu il (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün) | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi | Yaşayış yerinin ünvanı | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Səlahiyyətli şəxs** __________ ________________________
*(imza)* *(inisialı və soyadı)*

**Qeyd:** *bu siyahı Mərkəzi Seçki Komissiyasına və müvafiq dairə seçki komissiyalarına təqdim edilir.*

*Təlimata 3 saylı əlavə*

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına

__________________________________________________________

*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

**siyasi partiya, siyasi partiyaların bloku tərəfindən təyin edilmiş maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin**

**S İ Y A H I S I**

| Sıra sayı | Soyadı, adı, atasının adı | Doğulduğu il (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün) | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi | Yaşayış yerinin ünvanı | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Səlahiyyətli şəxs** ____________ ____________________________
*(imza)* *(inisialı və soyadı)*

**Qeyd:** *bu siyahıya maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin razılıq ərizələri və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 40.15-ci maddəsinin tələbinə uyğun olaraq 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.*
*Bu siyahı yalnız Mərkəzi Seçki Komissiyasına təqdim edilir.*

*Təlimata 4 saylı əlavə*

Azərbaycan Respublikası Prezidentinin seçkilərində iştirak edən

___________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*
tərəfindən səlahiyyətli nümayəndə təyin edilməsi nəzərdə tutulmuş

___________________________________
*(soyadı, adı, atasının adı)*

**R A Z I L I Q  M Ə K T U B U**

Mən, _______________ tarixdə keçiriləcək Azərbaycan Respublikası
*(seçkilərin keçiriləcəyi tarix)*
Prezidentinin seçkilərində yuxarıda adı göstərilən siyasi partiya, siyasi partiyaların bloku tərəfindən səlahiyyətli nümayəndə təyin olunmağıma razılıq verirəm.

Bildirirəm ki, _______________ ildə anadan olmuşam, ___________
*(doğum tarixi)*
________________________________________________ yaşayıram,
*(yaşayış yerinin ünvanı)*
________________________ malikəm, _________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)* *[əsas iş və ya xidmət yeri,*
_________________________________ işləyirəm (fəaliyyət göstərirəm).
*tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü)]*

Mənimlə ___________________ nömrəli telefonla əlaqə yaratmaq olar.
*(telefon nömrəsi)*

__________ ______________________
*(imza)* *(inisialı və soyadı)*

“____” ____________ 20____ il
*(ərizənin verilmə tarixi)*

**Qeyd**: *1. Bu məktub siyasi partiyanın, siyasi partiyaların bloku tərəfindən təyin edilmiş səlahiyyətli nümayəndələrin Mərkəzi Seçki Komissiyasına göndərilməli olan siyahısına əlavə edilir.*
*2. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 40.15-ci maddəsinin tələbinə uyğun olaraq razılıq məktubuna səlahiyyətli nümayəndənin 3×4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkli əlavə edilməlidir.*

*Təlimata 5 saylı əlavə*

Azərbaycan Respublikası Prezidentinin seçkilərində iştirak edən

______________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

tərəfindən maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilməsi nəzərdə tutulmuş

______________________________________
*(soyadı, adı, atasının adı)*

## RAZILIQ MƏKTUBU

Mən, ____________________ tarixdə keçiriləcək Azərbaycan Respublikası
*(seçkilərin keçiriləcəyi tarix)*
Prezidentinin seçkilərində yuxarıda adı göstərilən siyasi partiya, siyasi partiyaların bloku tərəfindən maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunmağıma razılıq verirəm.

Bildirirəm ki, ______________________ ildə anadan olmuşam, _________
*(doğum tarixi)*
__________________________________________________________ yaşayıram,
*(yaşayış yerinin ünvanı)*
_____________________________ malikəm, ______________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)* *[əsas iş və ya xidmət yeri,*
________________________________________ işləyirəm (fəaliyyət göstərirəm).
*tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü)]*

Mənimlə ____________________ nömrəli telefonla əlaqə yaratmaq olar.
*(telefon nömrəsi)*

_______________ ____________________________
*(imza)* *(inisialı və soyadı)*

“____” _____________ 20____ il
*(ərizənin verilmə tarixi)*

**Qeyd**: *1. Bu məktub siyasi partiyanın, siyasi partiyaların bloku tərəfindən təyin edilmiş maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin Mərkəzi Seçki Komissiyasına göndərilməli olan siyahısına əlavə edilir.*
*2. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 40.15-ci maddəsinin tələbinə uyğun olaraq razılıq məktubuna maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin 3×4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkli əlavə edilməlidir.*

*Təlimata 6 saylı əlavə*

**V Ə K A L Ə T N A M Ə**

_______________________________________________________________

*(siyasi partiyanın adı)*

"______" ____________________ 20___ il tarixli qurultayının (konfransının,

rəhbər orqanının iclasının) _____ saylı qərarına əsasən _________________

___________________________________________________________ yaşayan,

*(yaşayış yerinin ünvanı)*

_________________________________________________________ malik olan

*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)*

_________________________________________________________________

*(soyadı, adı, atasının adı)*

___________________________ tarixə təyin edilmiş Azərbaycan Respublikası

*(seçkilərin keçiriləcəyi tarix)*

Prezidentinin seçkilərində həmin siyasi partiyanın səlahiyyətli nümayəndəsi qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

______________ ________________________________________

*(imza)* *[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]*

**Qeyd:** *1. Vəkalətnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 6 “a” saylı əlavə*

**V Ə K A L Ə T N A M Ə**

____________________________________________________
*(siyasi partiyanın adı)*

“_____” ____________________ 20___ il tarixli qurultayının (konfransının,

rəhbər orqanının iclasının) _______ saylı qərarına əsasən _______________

___________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*

___________________________________________________ malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)*

___________________________________________________________
*(soyadı, adı, atasının adı)*

_________________________ tarixə təyin edilmiş Azərbaycan Respublikası
*(seçkilərin keçiriləcəyi tarix)*

Prezidentinin seçkilərində həmin siyasi partiyanın maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

_________________ ____________________________________________
*(imza)* *[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]*

**Qeyd:** *1. Vəkalətnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq olunmalıdır.*
*2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 6 "b" saylı əlavə*

**V Ə K A L Ə T N A M Ə**

__________________________ siyasi partiyalar bloku nümayəndələrinin
*(siyasi partiyalar blokunun adı)*

iclasının "____" ___________ 20____ il tarixli ____ saylı qərarına əsasən

______________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*

____________________________________________________ malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)*

______________________________________________________________
*(soyadı, adı, atasının adı)*

_________________________ tarixə təyin edilmiş Azərbaycan Respublikası
*(seçkilərin keçiriləcəyi tarix)*

Prezidentinin seçkilərində həmin siyasi partiyalar blokunun adından səlahiyyətli nümayəndə qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

Siyasi partiyaların blokuna daxil olan partiyaların sədrləri:

1. ____________ ______________________________________
*(imza)* *[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]*

2. ____________ ______________________________________
*(imza)* *[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]*

3. ____________ ______________________________________
*(imza)* *[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]*

...

____________ ______________________________________
*(imza)* *[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]*

**Qeyd:** *1. Vəkalətnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 6 “c” saylı əlavə*

**V Ə K A L Ə T N A M Ə**

____________________________siyasi partiyalar bloku nümayəndələrinin
*(siyasi partiyalar blokunun adı)*

iclasının “____” ____________ 20___ il tarixli ____ saylı qərarına əsasən
__________________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*
________________________________________________________ malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)*
__________________________________________________________________
*(soyadı, adı, atasının adı)*
___________________________ tarixə təyin edilmiş Azərbaycan Respublikası
*(seçkilərin keçiriləcəyi tarix)*
Prezidentinin seçkilərində həmin siyasi partiyalar blokunun adından səlahiyyətli nümayəndə qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

___________ _____________________________________________
*(imza)* *(vəkalətnamənin notariat qaydasında rəsmiləşdirilməsi həvalə edilmiş nümayəndənin soyadı, adı, atasının adı)*

**Qeyd:** 1. Vəkalətnamə notariat qaydasında təsdiq olunmalıdır.
2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.

*Təlimata 6 "ç" saylı əlavə*

**V Ə K A L Ə T N A M Ə**

____________________________ siyasi partiyalar bloku nümayəndələrinin
*(siyasi partiyalar blokunun adı)*

iclasının "____" ____________ 20____ il tarixli ____ saylı qərarına əsasən

_______________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*

_____________________________________________________ malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)*

______________________________________________________________
*(soyadı, adı, atasının adı)*

__________________________ tarixə təyin edilmiş Azərbaycan Respublikası
*(seçkilərin keçiriləcəyi tarix)*

Prezidentinin seçkilərində həmin siyasi partiyalar blokunun adından maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

____________ ____________________________________________
*(imza)* *(vəkalətnamənin notariat qaydasında rəsmiləşdirilməsi həvalə edilmiş nümayəndənin soyadı, adı, atasının adı)*

**Qeyd:** *1. Vəkalətnamə notariat qaydasında təsdiq olunmalıdır.*
*2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 6 "d" saylı əlavə*

**V Ə K A L Ə T N A M Ə**

__________________________ siyasi partiyalar bloku nümayəndələrinin
*(siyasi partiyalar blokunun adı)*

iclasının "____" ___________ 20____ il tarixli ____ saylı qərarına əsasən

________________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*

________________________________________________________ malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)*

______________________________________________________________
*(soyadı, adı, atasının adı)*

__________________________ tarixə təyin edilmiş Azərbaycan Respublikası
*(seçkilərin keçiriləcəyi tarix)*

Prezidentinin seçkilərində həmin siyasi partiyalar blokunun adından maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

Siyasi partiyaların blokuna daxil olan partiyaların sədrləri:

1. ____________ _________________________________________
*(imza)* *[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]*

2. ____________ _________________________________________
*(imza)* *[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]*

3. ____________ _________________________________________
*(imza)* *[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]*

...

____________ _________________________________________
*(imza)* *[siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı]*

**Qeyd:** *1. Vəkalətnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq olunmalıdır.*

*2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 7 saylı əlavə*

**A R A Y I Ş**

"____"_________20___ il

Saat _______

Verilir ________________________________________ ondan ötrü ki,
*(sənədləri təqdim edən şəxsin soyadı, adı, atasının adı)*
o, həqiqətən _____________________________ Azərbaycan Respublikası
*(namizədin soyadı, adı, atasının adı)*
Prezidentinin seçkilərində prezidentliyə namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi üçün aşağıdakı sənədləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim etmişdir:

1.
2.
3.
4.
5.
6.

| ______________________ | ____________ | ______________________ |
|---|---|---|
| *(sənədi qəbul edən şəxsin vəzifəsi)* | *(imza)* | *(soyadı, adı, atasının adı)* |

M.Y.

| ______________________ | ____________ | ______________________ |
|---|---|---|
| *(sənədi təqdim edən şəxsin statusu)* | *(imza)* | *(soyadı, adı, atasının adı)* |

**Qeyd:** *Sənədləri Mərkəzi Seçki Komissiyasına siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi təqdim edə bilər.*
*Bu arayış 2 nüsxədən ibarət tərtib edilməli, 1 nüsxəsi Mərkəzi Seçki Komissiyasında qalmalı, digər nüsxəsi isə sənədləri təqdim edən şəxsə verilməlidir.*